# ƏDƏBİ YAŞANTILAR VƏ YA GÜNDƏLİKDƏN SƏTİRLƏR

*(Əvvəli ötən saylarımızda)*

**19 FEVRAL 1976.** Bu gün işdən sonra şəhərdəki 1 nömrəli fizika - riyaziyyat təmayüllü internat məktəbinə getdim. Məktəbdə görkəmli inqilabçı Məşədi Əzizbəyovun anadan olmasının yüz illiyi münasibəti ilə maraqlı bir tədbir keçirildi. Şagirdlərlə görüşə şair Söhrab Tahir başda olmaqla ədəbiyyat dərnəyimizin bir neçə üzvü qonaq gəlmişdi. Mən də onların arasında idim və biz səhnədə fəxri qonaqlarla bir cərgədə oturmuşduq. Tədbirdə M.Əzizbəyovun doğma qızı Bəyim xanım Əzizbəyova da iştirak edirdi.

Söhrab Tahir giriş sözü söylədi. Sonra isə məktəbin müəllimlərindən biri danışdı. Onun dediklərindən:

- M.Əzizbəyov vaxtilə Bakıda kiçik inqilabi dərnəklər yaratmış, daim jandarmların amansız təqibləri şəraitində fəaliyyət göstərməyə məcbur olmuşdur. O, öz məsləkdaşları ilə 1905-ci il inqilabında da fəal iştirak etmişdir. Əzizbəyov Azərbaycanda sovet hakimiyyəti elan edildikdən sonra quberniya komissarı təyin edilmişdi. Bu zaman Kazım Ağanın rəhbərliyi ilə türk qoşunları Bakıya hücum edib şəhəri tutdular. 1918 - ci il sentyabrın 19-dan 20-nə keçən gecə ingilis müdaxiləçiləri tərəfindən həbs edilmiş 26 Bakı komissarı Türkmənistanın Ağcaqum çölünə aparılaraq orada vəhşicəsinə güllələndi. Məşədi də onların arasında idi.

Sonra M.Əzizbəyovun qızı Bəyim xanım Əzizbəyova danışdı:

-Atam nənəmin köməyi ilə oxuyub ali təhsil almaq üçün Peterburqa gedir. Təhsildən qayıtdıqdan sonra isə polislər tez - tez evimizi axtarırdılar. Bir dəfə atam polislərin gələcəyini duymuşdu. Evdə isə çoxlu bomba var idi. Onları cəld gizlətmək lazım idi. Anam bu zaman xəstələndiyi üçün yorğan - döşəkdə yatırdı. Atam cəld bombaları evin ortasına düzdü, sonra anamın yorğan-döşəyini onların üstündən saldı və anam yerinə girib uzandı. Bir az keçmişdi ki, polislər gəldilər, hər yeri axtarıb ələk-vələk etdilər, lakin heç bir şey tapa bilmədikləri üçün çıxıb getdilər.

Bundan sonra Bəyim xanım atası ilə bağlı digər xatirələrini söylədi və özünün sonrakı həyatından bəzi epizodları danışdı.

Dərnəyimizin fəal üzvü , gənc şair Fazil Səməd 26-lara həsr etdiyi "Biz sizə borcluyuq" adlı şeirini oxudu.

Lenin adına Mərkəzi şəhər kitabxanasının işçisi Soltanə xanım 26-lar haqqında danışdı və onlara həsr edilmiş kitabları nümayiş etdirdi.

Gənc şair Bəxtiyar Cahangirov özünün yazdığı "26-ların abidəsi önündə" adlı şeirini oxudu.

Gənc şair Eldar İbrahim 26-lar haqqında hərarətlə danışdı və özünün "Öpüşlər", "Səngər" adlı şeirlərini oxudu.

Zəlimxan Yaqubun alovlu danışığı şagirdlər tərəfindən xüsusi heyranlıqla qarşılandı və onların arasında ruh yüksəkliyinə səbəb oldu.

Bundan sonra tədbirin ədəbi hissəsi başa çatdı, bədii hissədə isə Filarmoniyadan gəlmiş artistlər maraqlı konsert proqramı ilə çıxış etdilər.

**7 MART 1976.** Mart ayı da gəlib yetişdi. Bir-birini qovan günlər sürətlə ötüb keçir. Bu gün də ədəbiyyat dərnəyinin məşğələsinə getdim. Sevilən şairimiz Məmməd Araz qonaq gəldiyi üçün bu günkü tədbirimiz kitabxananın böyük oxu zalında keçirildi. Məmməd Araz özünün sənətlə bağlı xatirələrini danışdı və yaradıcılıq planları ilə bizi tanış etdi. O, sənətin çətin yollarına yeni qədəm qoyan yaradıcı gənclərə maraqlı tövsiyyələr etdi, həmçinin həyatın çətinliklərindən, söz sənətinin ümdə problemlərindən danışdı. Axırda çoxlu şeir söylədi və alqışlarla qarşılandı.

**10 MART** Bu gün axşam saat 8-də Şaumyan adına mədəniyyət sarayının böyük zalında sevimli xalq şairimiz Süleyman Rüstəmin anadan olmasının 70 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçirildi. Tədbir respublika televiziyası ilə birbaşa transilyasiya edilirdi. Əvvəlcə məşhur televiziya diktoru Roza xanım Tağıyeva danışdı:

- Sevimli şairimizə ümumxalq məhəbbəti qazandıran onun möhtəşəm poeziyasıdır. Biz bu möhtəşəm yubiley gecəsində ona görə həyəcanlanırıq ki, Süleyman Rüstəmə Yaxın və Orta Şərqdə Kommunist Partiyasının ilk nəğməkarı olmaq səadəti nəsib olmuşdur. İndi isə, icazə verin, hörmətli şairimizin yubileyinə həsr olunmuş təntənəli gecəni açıq elan edim.

Salonda alqış sədaları gurladı. Birinci sırada əyləşmiş S.Rüstəm ayağa qalxdı və başının işarəsi ilə salondakılara minnətdarlığını bildirdi.

Əvvəlcə Gülüğa Məmmədov şairin sözlərinə yazılmış "Vətən" mahnısını oxudu.

Sevimli şairimiz Bəxtiyar Vahabzadə çıxış etdi:

-Bəzi sənətkarlarda belə bir xüsusiyyət olur ki, onlar yaradıcılıqda qabarma-çəkilmə dövrünü keçirirlər. Süleyman Rüstəm isə daim qabarmış, hər zaman coşqunluqla yazıb yaratmışdır. Mən üzümü sevimli sənətkarımıza tutub deyirəm:

- Əziz dostum, əziz qardaşım, gün o gün olsun ki, sənin yüz illik yubileyini bu möhtəşəm salonda və yurdumuzun başqa-başqa guşələrində keçirək, başlıcası isə bu yubiley sənsiz keçməsin.

Alqışlar xeyli çəkdi. Salonun birinci üç cərgəsində yazıçı və şairlər, görkəmli elm və mədəniyyət xadimləri əyləşmişdilər.

Müğənni Baba Mirzəyev şairin sözlərinə yazılmış "Məhəbbət" mahnısını oxudu. İstedadlı bədii qiraət ustası Həsən Əbluc şairin "Mən kommunistəm" şeirini söylədi.

Aktyorların iştirakı ilə şairin pyesi əsasında səhnələşdirilmiş "Bir ailədə" adlı tamaşadan bir parça nümayiş etdirildi.

Respublikanın Xalq artisti Vera Şirye şair haqqında böyük ilham və məhəbbətlə danışdı. Sonra o, şairin "Ana və poçtalyon" adlı şeirini azərbaycan dilində əzbər söylədi.

Respublikanın Xalq artisti, sevilən bəstəkar Tofiq Quliyev çıxış edərək dedi:

- Əziz dostlar, mənim S.Rüstəmi sizə tanınmış şair və ya görkəmli ictimai xadim kimi təqdim etməyimə ehtiyac yoxdur. Əziz dostum S.Rüstəm bəzi bəstəkarları musiqidə şair adlandırır, mən isə onu poeziyada bəstəkar adlandırıram. Mən sevimli şairimizin sözlərinə otuz il bundan əvvəl bəstələdiyim "Neftçilər" adlı mahnını bu gün bura gətirmişəm. Onu Lütviyar İmanov ifa edəcək. Sonra L.İmanov səhnəyə çıxdı, T.Quliyev isə royalın arxasına keçdi. Onların ifa etdikləri mahnı alqışlarla qarşılandı.

Respublikanın Xalq artisti Əli Zeynalov şairin şeirlərindən nümunələr söylədi. Yenidən səhnəyə çıxan Gülağa Məmmədov şairin sözlərinə bəstələnmiş "Vəfalı oğlanam mən" adlı mahnını oxudu. Respublikanın Əməkdar artisti Səməndər R zayev şairin "O, mənəm" adlı şeirini söylədi.

Maştağa qəsəbəsindəki 209 nömrəli məktəbin gənc müəllimi Baladariya Hüseynov şairin özü tərəfindən çəkilmiş nəfis portretini məclisin səbəbkarına təqdim etdi. Portretin gözəlliyinə valeh olan tamaşaçılar onun müəllifini alqışlarla qarşıladı.

Müğənni İlhamə Quliyeva şairin sözlərinə yazılmış "Yandım, elə yandım" mahnısını oxudu.

Filosof-tənqidçi Asif Əfəndiyev S.Rüstəm yaradıcılığının fəlsəfi, etik və estetik mahiyyəti barədə danışdı.

Aktyorlardan Zenfira Əliyeva və Səyavuş Aslanın iştirakı ilə şairin "Durna" musiqili komediyasından bir parça nümayiş etdirildi.

Görkəmli bədii qiraət ustası Əminə Yusif qızı şairin "Ayrılmaz" və "Axtararsınız" adlı şeirlərini söylədi.

Sevilən şair Əliağa Kürçaylı S.Rüstəm sənətinin bədii məziyyətləri haqqda böyük ilhamla danışdı.

Respublikanın Əməkdar artisti İslam Rzayev şairin sözlərinə bəstələnmiş "Sədaqətim var" və "Bir ulduzam" adlı mahnılarını oxudu.

Aktyor Eldəniz Zeynalov şairin "Böhtanzadə" adlı satirik şeirini söylədi.

Şairin sözləri əsasında hazırlanmış "Gəldi - gedər" komediyasından bir parça nümayiş etdirildi.

İstedadlı aktyor Mikayıl Mirzəyev şairin şeirlərini xüsusi pafosla söylədiyi üçün hərarətlə qarşılandı.

Görkəmli müğənni Mirzə Babayev şairin sözlərinə bəstələnmiş "Lirik mahnı" oxudu.

Müğənni Elmira Rəhimova şairin sözlərinə yazıklmış "Qurban adına" adlı mahnısını oxudu.

Bundan sonra M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun bir qrup tələbəsi çıxış edərək şairin şeirlərini əzbər söylədilər və əllərindəki al-əlvan çiçək dəstələrini yubilyara təqdim etdilər.

Nəhayət, bu günkü məclisin səbəbkarı S.Rüstəm səhnəyə çıxdı. Şair öz ürək sözlərini söylədi, tamaşaçılara, televiziya işçilərinə və qələm dostlarına səmimi təşəkkürünü bildirdi və son şeirlərindən bir neçəsini söylədi.

Yüksək səviyyədə keçən maraqlı tədbir beləcə başa çatdı.

**21 MART.** Bu gün, Bahar bayramı günündə , Azərbaycanın ilk Xalq şairi , Sovet ədəbiyyatının qartallarından biri Səməd Vurğunun anadan olmasının 70 illiyi tamam olur. Onu da qeyd edim ki, görkəmli şairin yubileyi bütün il ərzində qədirb ilən xalqımız tərəfindən qeyd edilir.

Bu gün Maksim Qorki adına Gənc Tamaşaçılar Teatrının tamaşa salonunda həmin yubileyə həsr edilmiş ədəbi-bədii gecə keçirildi. Gecədə şairlərdən Tofiq Bayram, İsa İsmayılzadə, Vaqif Səmədoğlu, jurnalist Nəriman Həsənəli iştirak edirdi. Dərnəyimizin üzvü olan gənc şairlər də salonda oturmuşdular.

Gecəni giriş sözü ilə odlu-alovlu şair Tofiq Bayram açdı. O, elə böyük ilham və pafosla danışırdı ki, salondakılar xüsusi sükut və ehtiramla qulaq asırdılar:

-S.Vurğunun böyüklüyü onda idi ki, o, dağda, alaçıqda çobanlarla oturub pendir-çörək kəsməyi də, Londonun çılçıraqlı salonlarında Çörçillə deyişməyi də bacarırdı.

Sonra İsa İsmayılzadə və Nəriman Həsənəli şair haqqında öz təəssüratlarını danışdılar.

Böyük şairin oğlu Vaqif Səmədoğluya söz verildi, salonu sürəkli alqış sədaları bürüdü.

-Mən və qardaşım Yusif daim atamızın şərəfini uca tutmağa çalışmışıq, lakin onun ucaldığı zirvəyə bizim əlimiz çata bilməz. S.Vurğun xalqın dərin məhəbbətini qazanan bir insan olmaqla yanaşı, həm böyük şəxsiyyət, həm də gözəl bir ata idi. Mənim və Yusifin əsas borcu bütün ömrümüz boyu şərəflə yaşamaqdan, hər zaman atamızın adına layiq işlər görməkdən ibarətdir.

Bundan sonra gənc şairlərdən Eldar İbrahim, Qədir və Səyavuş İsmayılov böyük S.Vurğuna həsr etdikləri şeirlərini söylədilər.

Ədəbi hissə sona yetdikdən sonra bədii hissədə xanəndə Arif Babayev S.Vurğunun sözlərinə yazılmış "Daşlı qala" və "Sənsiz yaşaya bilmərəm" mahnılarını oxudu. Şair Hüseyn hüseynzadənin S.Vurğuna həsr etdiyi "Yolda" adlı pyesdən bir parça nümayiş etdirildi. Rollarda Gənc Tamaşaçılar Teatrının aktyorları iştirak edirdilər. Sonra S.Vurğunun "Vaqif" və "Fərhad və Şirin" tamaşalarından parçalar göstərildi. Rollarda 1 nömrəli fizika - riyaziyyat təmayüllü internat məktəbin yuxarı sinif şagirdləri iştirak edirdi.

Bununla da dahi şairə həsr edilmiş ədəbi - bədii gecə sona yetdi.

*(Davamı var)*



***Bayram AFURCALI***